# Qəbələ sosial-iqtisadi inkişaf yollarında

## Fəttah HEYDƏROV, Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı.

**Əziz dostlar!**
**Hörmətli qəbələlilər!**

Biz sizinlə bir yerdə möhtəşəm bir tədbirə toplaşmışıq. 2019-cu ildə bizim belə cəm şəklində birinci görüşümüz olduğuna görə icazə verin sizin hamınızı, sizin şəxsinizdə bütün qəbələliləri yeni il münasibətilə təbrik edim, uğurlar arzulayım.



**Əziz dostlar!**

Ötən il bütün ölkəmiz kimi Qəbələ üçün də uğurlu olmuşdur. Keçən il yanvarın 10-da möhtərəm Prezidentimiz İlham Əliyev 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etmişdi. Bu münasibətlə ölkəmizin hər bir güşəsində böyük tədbirlər həyata keçirilmişdir. Bununla da müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bir daha bütün dünyaya bəyan etmişdir.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla inamla irəliləyən Azərbaycan Respublikası 2018-ci ili də nailiyyətlərlə yola salmışdır. Bildiyiniz kimi dünyada iqtisadi və siyasi böhran davam edir. Buna baxmayaraq Azərbaycan ölkə başçımız İlham Əliyevin həyata keçirdiyi qabaqlayıcı tədbirlər nəticəsində iqtisadi sahədə yüksəlişini davam etdirmiş, ictimai-siyasi sabitliyi qoruyub saxlamışdır. Bunun üçün biz dövlət başçımız cənab İlham Əliyevə minnətdar olmalıyıq.

Respublikamızda həyata keçirilən islahatlar 2018-ci ildə də davam etdirilmişdir. Ölkədə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilmişdir. Bu sahədə görülən işlər iqtisadiyyatımızın dinamik inkişafına imkan yaradıb.

Sevindiricidir ki, ölkədə gedən hər tərəfli yüksəlişdə qəbələlilərində fəal rolu vardır. Məruzədə qeyd edildiyi kimi kənd təsərrüfatı məhsullarının, xüsusilə ixrac yönümlü məhsulların istehsalı Qəbələdə yüksələn xətlə gedir.

Qeyd etmək isdəyirəm ki, möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycanın hər bir bölgəsi kimi Qəbələyə də diqqət və qayğısı gündən günə artır. Artıq keçən ildə Qəbələdə turizm infrastrukturunun genişləndirilməsi məqsədilə yeni çox nəhəng layihələrin həyata keçirilməsinə başlanmışdır. Qəbələyə dəmir yolu xətti çəkilir. Qəbələdə regionda ən müasir xəstəxana kompleksinin tikintisi işləri sürətlə gedir.

Bütün bu tədbirlər bir məqsədə xidmət edir: əhalinin rifah halını daha da yaxşılaşdırmaq.

Mən sizin hər birinizi, bütün qəbələləri 2018-ci ildə qazanılan uğurlar münasibətilə təbrik edir, 2019-cu ildə yeni nailiyyətlər arzulayıram!

## Rüfət ƏLİYEV, Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri.

**Hörmətli tədbir iştirakçıları,**
**Xanımlar və cənablar!**

Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.

İclasdakı giriş nitqində cənab İlham Əliyev ilin əvvəlindən qarşıya qoyulan bütün vəzifələrin uğurla və vaxtında icra edildiyini, regionların sosial-iqtisadi inkişafı ilə bağlı üçüncü beşillik proqramın başa çatdığını, bu il dördüncü proqramın qəbul olunacağını bildirmişdir.



Keçən il bölgələrə 24 dəfə səfər etdiyini deyən dövlətimizin başçısı ölkəmizdə ictimai-siyasi vəziyyətin sabit olduğunu, xarici siyasət sahəsində də bir sıra uğurların əldə edildiyini, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayının artdığını diqqətə çatdırmışdır.

Dövlətimizin başçısı 2018-ci ildə üçüncü peykimizin orbitə buraxıldığını, Cənub Qaz Dəhlizinin rəsmi açılışı olduğunu, TANAP layihəsinin işə düşdüyünü, Ələt Beynəlxalq Ticarət Limanının fəaliyyətə başladığını xüsusi olaraq qeyd etmişdir.

2018-ci ili dərin islahatlar dövrü kimi xarakterizə edən dövlətimizin başçısı əsas iqtisadi göstəricilərdən danışarkən demişdir ki, ötən il ümumi daxili məhsulun artımı 1,4 faiz olmuş, o cümlədən qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı isə 4,6 faiz artmış, 118 min daimi iş yeri yaradılmışdır.

İnfilyasiyanın cəmi 2,3 faiz olduğuni, əhalinin pul gəlirlərinin isə 9,2 faiz artdığını və infilyasiyanı üstələdiyini qeyd edən cənab İlham Əliyev manatın məzənnəsinin sabit qaldığını bildirmişdir.

Prezident İlham Əliyevin iclasdakı giriş nitqində ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulduğu, bunun 11 milyard manatdan çoxunun qeyri-neft sektorunun payına düşdüyü qeyd olunmuş, valyuta ehtiyatlarımızın isə 3 milyard dollar artaraq 45 milyard dollara çatdığı vurğulanmışdır.

Xarici borcların 22,8 faizdən 19 faizə düşdüyünü və ümumi daxili məhsulun 19 faizini təşkil etdiyini deyən cənab Prezident valyuta ehtiyatlarımızın xarici borcumuzu 4-5 dəfə üstələdiyini, ixracın 36 faiz artaraq 19 milyard dollara çatdığını, xarici ticarət balansında müsbət saldonun - yəni, ixracın idxalı üstələməsinin 8,6 milyard dollar təşkil etdiyini nəzərə çatdırmışdır.

Cənab İlham Əliyev iclasdakı nitqində hakimiyyətin apardığı siyasətin Azərbaycan xalqının rifahının daha da yaxşılaşmasına, onun etibarlı gələcəyinə və ölkənin sosial-iqtisadi inkişafının yüksəlməsinə yönəldiyini demişdir.

# “KOB Dostu” sahibkarların xidmətində

***Qəbələdə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin “Kiçik və Orta Biznesin Dostu” fəaliyyətə başlayıb. Qeyd edək ki, bu, Şəki-Zaqatala iqtisadi rayonu üzrə ilk “KOB Dostu”dur və Qəbələ rayonu ilə yanaşı, ətraf rayonlarda fəaliyyət göstərən sahibkarlara da xidmət göstərəcək.***

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək rayonda özəl bölmənin inkişafı istiqamətində görülən işlər barədə məlumat verib.

RİH-nin başçısı digər dövlət dəstəyi mexanizmləri kimi, “KOB Dostu”nun da rayonda sahibkarlıq fəaliyyətinin genişlənməsinə töhfə verəcəyini diqqətə çatdırıb.

Bununla bağlı Heydər Əliyev Konqres Mərkəzində təşkil olunmuş tədbirdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin fəaliyyəti və göstərdiyi xidmətlər, eləcə də agentliyin mikro, kiçik və orta biznesə mühüm dəstək mexanizmlərindən olan “KOB Dostu” barədə məlumat verib.



Vurğulanıb ki, Qəbələ “KOB Dostu” ilə birlikdə hazırda Agentliyin ölkənin 9 şəhər və rayonunda 12 “KOB Dostu” fəaliyyət göstərir. “KOB Dostu” fəaliyyət göstərdiyi regionlarda mikro, kiçik və orta biznes subyektləri ilə birbaşa ünsiyyətdə olur, onların inkişaf təşəbbüslərinin, potensial imkanlarının müəyyən edilməsi və reallaşdırılması, yeni KOB subyektlərinin yaradılması və inkişafının bütün mərhələlərində, eləcə də sahibkarların hüquqlarının müdafiəsi istiqamətində fəaliyyət göstərir.




Tədbirdə sahibkarların sualları cavablandırılıb.

Çıxış edən sahibkarlar özəl bölmənin, xüsusilə kiçik və orta biznesin inkişafına göstərilən davamlı dəstəyə görə dövlət başçısına minnətdarlıq ediblər.

Sonra tədbir iştirakçıları Qəbələdə Heydər Əliyev Mərkəzində yerləşən “KOB Dostu”nun ofisi ilə tanış olublar.

**“Qəbələ”**